## Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar həmin Məcəllənin tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Məcəlləyə uyğunlaşdırılmasını təmin etsin və bu Barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Məcəllənin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Məcəllənin 4.1-ci, 4.2-ci, 5.1-ci, 5.2-ci, 8.2-ci, 12.1-ci, 13.2-ci, 18.2-ci, 20-ci, 25.1-ci, 27.2-ci, 29.2-ci, 30.3.1-ci, 44.4-cü, 61.3-cü, 67.3-cü, 68-cü, ~~*89.1-ci, 89.2-ci,*~~ 265.4-cü maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı» barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;[1]

öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsindən irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:[2]

*2.1. Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 2.5-ci və 4.4-cü (birinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*[3]

2.2. *həmin Məcəllənin 4.4-cü maddəsində (ikinci halda), 16.3-cü maddəsində, 22.6-cı maddəsində (ikinci halda),* 26.5-ci maddəsində (ikinci halda), 42.2-ci, 43-cü, 44.1-ci, 47.2-ci maddələrində, 61.2-ci maddəsinin ikinci cümləsində, 62.1.8-ci, 63.4-cü, 67.1-ci, *142.2-ci, 182.1-ci maddələrində və 182.2-ci maddəsinin ikinci cümləsində* nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;[4]

2.3. həmin Məcəllənin 4.3-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir;

2.4. həmin Məcəllənin *4.1-ci, 4.2-ci, 5.1-ci, 5.2-ci, 8.2-ci, 12.1-ci, 13.2-ci, 14.2-ci, 15.3-cü, 18.2-ci, 22.4-cü, 22.6-cı (birinci halda), 25.1-ci, 29.2-ci, 30.3.1-ci, 44.4-cü maddələrində, 61.2-ci maddəsinin birinci cümləsində, 62.1-ci, 63.1-ci, 63.2-ci, 63.3-cü, 64.1-ci, 67.3-cü, 68-ci, 89-cu (hər iki halda) maddələrində, 182.2-ci maddəsinin birinci cümləsində və 265.4-cü maddəsində* nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərinin Azərbaycan Respublikasının *Nəqliyyat,* Rabitə və *Yüksək Texnologiyalar* Nazirliyi həyata keçirir;[5]

2.5. həmin Məcəllənin 18.3-cü, 22.5-ci və 45-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

2.6. həmin Məcəllənin 83.4-cü maddəsində «müvafiq icra hakimiyyəti orqanı» dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi başa düşülür.

2.7. həmin Məcəllənin 28.4-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir;[6]

2.8. *həmin Məcəllənin 2.5-ci maddəsində "orqan (qurum)" dedikdə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinə münasibətdə Azərbaycan İnvestisiya Holdinqi, digər limanlara münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzərdə tutulur;*[7]

*2.9. həmin Məcəllənin 4.4-cü maddəsində "qurum" dedikdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti, o cümlədən onun strukturuna daxil olan qurumlar nəzərdə tutulur;*[8]

*2.10. həmin Məcəllənin 20-ci, 27.2-ci və 275.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir.*[9]

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 19 iyul 2001-ci il
541

-

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 7 fevral 2005-ci il tarixli 193 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 69**)
2. 28 dekabr 2006-cı il tarixli 506 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1053**)
3. 14 iyun 2007-ci il tarixli 588 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 601**)
4. 19 dekabr 2012-ci il tarixli **765** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Respublika" qəzeti 20 dekabr 2012-ci il, 284, "Azərbaycan" qəzeti 26 dekabr 2012-ci il, 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 12, maddə 1239**)
5. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**)

6. 20 may 2016-cı il tarixli **916** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 877**)

7. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**)

8. 22 may 2018-ci il tarixli **77** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 25 may 2018-ci il, 117, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 945** )

9. 19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9 , maddə 1840**)

10. 9 avqust 2021-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 10 avqust 2021-ci il, 165 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 909**)

-

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 20 may 2016-cı il tarixli **916** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 877**) ilə 1-ci hissənin beşinci abzasından "**89.1-ci, 89.2-ci**," sözləri çıxarılmışdır.

[2] 22 may 2018-ci il tarixli **77** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 25 may 2018-ci il, 117, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 945** ) ilə 2-ci hissənin ikinci–səkkizinci abzasları, müvafiq olaraq, 2.2–2.8-ci bəndlər hesab edilmişdir.

[3] 22 may 2018-ci il tarixli **77** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 25 may 2018-ci il, 117, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 945** ) ilə 2-ci hissəyə yeni məzmunda 2.1-ci bənd əlavə edilmişdir.

9 avqust 2021-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 10 avqust 2021-ci il, 165 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 909**) ilə 2.1-ci bənddə "**4.4-cü maddəsində (birinci halda)**" sözləri "**2.5-ci və 4.4-cü (birinci halda) maddələrində**" sözləri ilə əvəz edilmişdir.

[4] 28 dekabr 2006-cı il tarixli 506 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1053**) ilə 2-ci bəndinin ikinci abzasında "16.3- cü, 26.5-ci" rəqəmləri "16.3-cü maddələrində, 26.5-ci maddəsində (ikinci halda)" sözləri ilə əvəz edilmişdir.

19 dekabr 2012-ci il tarixli **765** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **"Respublika" qəzeti 20 dekabr 2012-ci il, 284, "Azərbaycan" qəzeti 26 dekabr 2012-ci il, 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 12, maddə 1239** ) ilə 2-ci hissəsinin ikinci abzasında "**, 61.2-ci, 62.1.11-ci**" sözləri "**maddələrində, 61.2-ci maddəsinin ikinci cümləsində, 62.1.8-ci, 63.4-cü** " sözləri ilə əvəz edilmişdir.

20 may 2016-cı il tarixli **916** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 877**) ilə 2-ci hissənin ikinci abzasda "**2.5-ci, 16.3-cü maddələrində**," sözləri "**16.3-cü maddəsində, 22.6-cı maddəsində (ikinci halda),**" sözləri ilə, **"və 142.2-ci maddələrində**" sözləri "**, 142.2-ci, 182.1-ci maddələrində və 182.2-ci maddəsinin ikinci cümləsində** " sözləri ilə əvəz edilmişdir.

22 may 2018-ci il tarixli **77** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 25 may 2018-ci il, 117, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 945**) ilə 2.2-ci bənddə "**Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin**" sözləri "**həmin Məcəllənin 4.4-cü maddəsində (ikinci halda),** " sözləri ilə əvəz edilmişdir.

[5] 7 fevral 2005-ci il tarixli 193 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 69** ) ilə 2-ci bəndin dördüncü abzasında "**Rabitə Nazirliyi**" sözləri "**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi** " sözləri ilə əvəz edilmişdir.

2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**) ilə 2-ci hissənin dördüncü abzasında "**İnformasiya Texnologiyaları**" sözləri "**Yüksək Texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**) ilə 2-ci hissənin dördüncü abzasına "**Rabitə**" sözündən əvvəl "**Nəqliyyat,**" sözü əlavə edilmişdir.

9 avqust 2021-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 10 avqust 2021-ci il, 165 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 909**) ilə 2.4-cü bənddə "**14.2-ci və 22.4-cü maddələrində**" sözləri "**4.1-ci, 4.2-ci, 5.1-ci, 5.2-ci, 8.2-ci, 12.1-ci, 13.2-ci, 14.2-ci, 15.3-cü, 18.2-ci, 22.4-cü, 22.6-cı (birinci halda), 25.1-ci, 29.2-ci, 30.3.1-ci, 44.4-cü maddələrində, 61.2-ci maddəsinin birinci cümləsində, 62.1-ci, 63.1-ci, 63.2-ci, 63.3-cü, 64.1-ci, 67.3-cü, 68-ci, 89-cu (hər iki halda) maddələrində, 182.2-ci maddəsinin birinci cümləsində və 265.4-cü maddəsində**" sözləri ilə əvəz edilmişdir.

[6] 14 iyun 2007-ci il tarixli 588 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 601**) ilə 2-ci bəndinə yeddinci abzas əlavə edilmişdir.

[7] 20 may 2016-cı il tarixli **916** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 877**) ilə 2-hissəsinə yeni məzmunda səkkizinci abzas əlavə edilmişdir.

19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9 , maddə 1840**) ilə 2.8-ci bəndində "**Dövlət Dəniz Administrasiyası**" sözləri "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

9 avqust 2021-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 10 avqust 2021-ci il, 165 ,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 909)** ilə 2.8-ci bənddə "**nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini**" sözləri "**orqan (qurum)" dedikdə**" sözləri ilə, "A**zərbaycan Respublikasının Nazirlər Kabinet**i" sözləri "**Azərbaycan İnvestisiya Holdinqi**" sözləri ilə və "**həyata keçirir**" sözləri "**nəzərdə tutulur**" sözləri ilə əvəz edilmişdir.

[8] 22 may 2018-ci il tarixli **77** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 25 may 2018-ci il, 117, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 945 )** ilə 2.8-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.9-cu bənd əlavə edilmişdir.

[9] 9 avqust 2021-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 10 avqust 2021-ci il, 165 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 909)** ilə 2.9-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.10-cu bənd əlavə edilmişdir.